DÜNYA

Moskva dizel razılaşmasını biznes əlaqələrinin bərpası üçün fürsət sayır

Noyabr 09, 2026



"Agioi Fanendes" tankerinin 40 min ton Rusiya istehsalı dizel yanacağı daşıdığı güman edilir.

ABŞ-nin Rusiyadan dizel yanacağı idxalına icazə verən razılaşma iki ölkə arasında biznes əlaqələrinin tədricən bərpası üçün fürsət yarada bilər. Bunu bu gün – noyabrın 9-da Rusiya xarici işlər nazirinin müavini bildirib.

ABŞ prezidenti **Donald Tramp** noyabrın 3-də keçirilən aralıq seçkilər öncəsi dizel yanacağının qiymətlərini sabitləşdirmək məqsədilə Rusiya dizelinin beynəlxalq bazarlara ixracının bərpasına razılıq verib. Trampın Respublikaçılar Partiyası isə həmin seçkilərdə məğlub olub.

Razılaşmanın necə həyata keçiriləcəyi hələ aydın deyil. Ötən həftə "Kpler" və LSEG şirkətlərinin gəmiçilik məlumatları göstərib ki, ABŞ-nin Atlantik okeanı sahillərinə istiqamətlənən, Rusiya dizeli yüklənmiş iki tanker marşrutunu dəyişib.

Rusiya xarici işlər nazirinin müavini **Aleksandr Pankin** TASS dövlət agentliyinə deyib ki, dizel razılaşması **"ölkələrimiz arasında işgüzar və digər əlaqələrin tədricən bərpası üçün zəmin yarada bilər".**

5 noyabr

Putinin elçisi: Rusiya tankerlərinin marşrutunu dəyişməsi xəbəri 'saxtadır'

Rusiya prezidenti Vladimir Putinin xüsusi elçisi **Kirill Dmitriyev** ABŞ-yə gedən Rusiya tankerlərinin marşrutlarını dəyişməsi haqda medianın yazdıqlarını "saxta xəbər" adlandırıb. O, bu barədə "X" sosial şəbəkəsində yazıb.

Dmitriyev tankerlərin əvvəlki marşrutları üzrə hərəkətlərini davam etdirdiklərini söyləyib.

Kreml isə noyabrın 5-də bildirib ki, Rusiyanın göndərdiyi dizel yanacağı alıcılara çatdırılacaq.

Rusiya yanacağı ilə ABŞ-yə gedən iki gəmi yolunu dəyişib - FT

ABŞ-yə Rusiya dizel yanacağı daşıyan iki tanker marşrutunu dəyişib. Bu barədə "The Financial Times" qəzeti gəmilərin hərəkətini izləyən sistemlərə və bazar iştirakçılarına istinadən yazır.

ABŞ, Böyük Britaniya və Avropa İttifaqının (Aİ) sanksiyaları altında olan **"Talisman"** tankeri Aralıq dənizinə istiqamət alıb və hazırda Əlcəzair sahillərindədir. Gəmi artıq son təyinat nöqtəsi kimi ABŞ limanını deyil, statusunu "göstəriş gözləyir" olaraq qeyd edib.

Honkonq şirkətinə məxsus olan və Syerra-Leone bayrağı altında üzən **"Leruo"** tankeri isə təyinat məntəqəsini Braziliya olaraq dəyişib. Bu gəmi Böyük Britaniya, Aİ və Kanadanın sanksiyaları altındadır.

Yunanıstanın "Eastern Mediterranean Maritime" şirkətinə məxsus **"Agioi Fanendes"** tankeri ABŞ-yə doğru getsə də, statusunu "göstəriş gözləyir" olaraq göstərib. Gəmi sahibinin sözlərinə görə, yükün boşaldılacağı liman hələ müəyyən edilməyib.

Seyşel adalarında qeydiyyatdan keçmiş şirkətə məxsus olan və sanksiyalar altında qalan daha bir gəmi – **"Beast"** isə oktyabrın 27-də Rusiyanın Leninqrad vilayətindəki Primorsk limanından dizel yanacağı yükləyərək Atlantik okeanına doğru istiqamət alıb. Gəmi təyinat məntəqəsi kimi ABŞ-nin Atlantik okeanı sahillərini göstərir.

3 noyabr

Rusiyadan ABŞ-yə dizel aparan 8 tanker yola düşüb

Ukrayna hakimiyyəti 300 min tondan çox Rusiya dizel yanacağı daşıyan səkkiz tankerin ABŞ-yə yol aldığını bildirir. Ukrayna hökumətindəki mənbələr bu barədə noyabrın 3-də AzadlıqRadiosuna məlumat veriblər.

Gəmilərdən yeddisi təyinat məntəqəsi kimi ABŞ-ni göstərib. Yunanıstan bayrağı altında üzən "Athina M." adlı səkkizinci gəminin də eyni istiqamətdə hərəkət etdiyi ehtimal olunur.

Mənbələr "Leruo", "Primorye", "Manta" və "Feliks" adlı dörd tankerin Avropa İttifaqı, Böyük Britaniya və Ukraynanın sanksiyaları altında olduğunu bildiriblər.

Oktyabrın 9-da ABŞ Maliyyə Nazirliyi Rusiya dizel yanacağının dünya bazarlarına tədarük edilməsinə dair ümumi lisenziya verib. Bu addımın məqsədinin qiymət artımı təzyiqlərini azaltmaq olduğu bildirilib.

Sözügedən gəmilər yüklərini oktyabrda Rusiya limanlarında vurublar. Onların ABŞ-yə noyabrın 7-dək və ya 18-dək çatacağı gözlənilir.

13 gəmi

ABŞ-dəki iki ictimai təşkilat isə ABŞ limanlarına Rusiya dizel yanacağı çatdıra biləcək 13 gəmini izlədiklərini bəyan ediblər.

Amerika Ukrayna Koalisiyası (American Coalition for Ukraine) və "Razom for Ukraine" təşkilatları "Taurus" və "Agioi Fanendes" gəmilərinin böyük ehtimalla Rusiya yanacağı daşıdığını deyirlər.

"Taurus" gəmisi Rusiya dizel yanacağı daşısa da, yüklə bağlı heç bir rəsmi sənəd yoxdur. "Agioi Fanendes" tankerinin isə tərkibində kükürdün miqdarı olduqca aşağı olan, təxminən 40 min ton Rusiya istehsalı dizel yanacağı daşıdığı güman edilir. Ukrayna hökumətində adının açıqlanmasını istəməyən mənbələr isə bu gəminin 35 min 700 ton yanacaq daşıdığını və Atlantik okeanı boyu qərbə doğru hərəkət etdiyini bildiriblər.

Ekspertlər bu daşımaların hüquqi riskləri barədə xəbərdarlıq ediblər.

Amerika Ukrayna Koalisiyasının siyasət üzrə direktoru **Yevgeni Qonçarov** AzadlıqRadiosuna bildirib ki, Rusiya dizel yanacağının idxalı ABŞ üçün iqtisadi baxımdan o qədər də əhəmiyyətli deyil, amma bu, Moskvaya gəlir qazandırır.

"Dizel yanacağı ilə bağlı bu sövdələşmə sözün əsl mənasında absurddur", – deyən Qonçarovun fikrincə, bu tədarüklər amerikalı istehlakçılar üçün qiymətləri aşağı salmayacaq.

O, ABŞ-nin özünün də dizel yanacağı ixracatçısı olduğunu xatırladaraq, bu addımın yaradacağı presedentdən narahat olduqlarını vurğulayıb.

Hüquqi məsələ

Nyu-Cersi ştatından olan konqresmen **Miki Şerrill** liman rəsmilərinə və terminal operatorlarına xəbərdarlıq edib ki, Rusiya dizel yanacağının qəbulu federal qanunvericiliyin pozulması sayıla, həmçinin onlara mülki və cinayət məsuliyyəti yarada bilər.

Maliyyə Nazirliyinin lisenziyası 2027-ci il aprelin 7-dək Rusiya mənşəli dizel yanacağı ilə bağlı əməliyyatlara, o cümlədən onun ABŞ-yə idxalına icazə verir.

Amma 2022-ci il də qanunu Rusiyadan enerji məhsullarının idxalını qadağan edir. Qanuna əsasən, bu qadağa yalnız o zaman ləğv edilə bilər ki, prezident Rusiyanın qoşunlarını geri çəkməyə və Ukraynadakı hərbi əməliyyatları dayandırmağa razılaşdığını təsdiqləsin. Qadağanın ləğvi üçün həmçinin 90 günlük gözləmə müddəti də nəzərdə tutulur ki, bu müddət ərzində Konqres qərarı əngəlləyə bilər.

Tramp administrasiyası isə qərarını müdafiə edib. Ağ Evin sözçüsü bildirib ki, bu sövdələşmənin məqsədi bazarda təklifi artırmaq və amerikalı istehlakçılar üçün yanacaq qiymətlərini aşağı salmaqdır.

Buna da bax:

Konqresdə demokratların qələbəsi: İran və Ukraynanı nə gözləyir?

Konqresmenlər banklara və limanlara Rusiya dizeli ilə bağlı xəbərdarlıq ediblər

Tramp Putinlə milyonlarla ton Rusiya dizelinin tədarükü barədə razılaşıb

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur